İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

15 DEKABR 2021-Cİ İL №023 (146)

Səh. 2 ZƏMANƏMİZİN “QƏHRƏMANLARI” - AZƏR MUSAOĞLU YAZIR

Səh. 3 FİTRƏTDƏN GƏLƏN BİR DUYĞU – HƏYA - HACI BƏKİROĞLU YAZIR

Səh. 5 VƏTƏNPƏRVƏRLİK VARİASİYALARI - İBRAHİMXƏLİL YAZIR

Səh. 5 İNSAN HƏYATINA YÖN VERƏN İLKLƏR - LAMİYƏ HACIYEVA YAZIR

Səh. 6 BALIQ BİLMƏZ, XALİQ BİLƏR - ESMİRA ƏLƏKBƏRLİ YAZIR

Səh. 6 UŞAQLIQ DÖVRÜNDƏN OĞURLANMIŞ UŞAQLIQ - ELSEVƏR ƏHMƏDOV YAZIR

Səh. 7 NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR - AFİQ MUXTAROĞLU YAZIR

## SƏHİYYƏ NAZİRİ İSTEFA VERİB



Gürcüstanın məcburi köçkünlərin işləri, əmək, səhiyyə və sosial müdafiə naziri Ekaterine Tikaradze istefa verib. Bu barədə o, keçirdiyi xüsusi brifinqdə deyib.

E.Tikaradze tibb sektorunda çalışanlara əməkdaşlığa görə minnətdarlığını bildirib və nazirliyə rəhbərlik etdiyi dövrdə əldə olunmuş nailiyyətlərdən danışıb.

Qeyd edək ki, E.Tikaradze Gürcüstanın məcburi köçkünlərin işləri, əmək, səhiyyə və sosial müdafiə naziri vəzifəsini 2019-cu ilin iyunundan tutub.

## KVEMO KARTLİ BÖLGƏSİNƏ YENİ QUBERNATOR TƏYİN OLUNUB



Kvemo Kartli bölgəsinə yeni qubernator təyin olunub. 33 yaşlı Giorgi Doxturişvili Şota Rexviaşvilinin müavini vəzifəsində çalışıb. Yeni quberantor dekabrın 1-dən vəzifəsinin icrasına başlayıb.

Sabiq qubernator Şota Rexviaşvili isə Gürcüstanın barışıq və vətəndaş bərabərliyi üzrə dövlət nazirinin müavini vəzifəsini tutub.

Ş.Rexviaşvili 2018-ci ildən Kvemo Kartli bölgəsinin qubernatoru vəzifəsində çalışıb.

## GÜRCÜSTANDA KORONAVİRUSDAN ÖLƏNLƏRİN SAYI 12 879 NƏFƏRƏ ÇATIB



Dekabrın 15-nə olan son məlumata əsasən, Gürcüstanda koronavirusdan ölənlərin sayı 12 879 nəfər təşkil edib. Bu haqda hökumətin xüsusi yaratdığı www.stopcov.ge saytında qeyd edilib.

Məlumatda ölkədə koronavirusa yoluxanların ümumi sayı 898 079 nəfər, sağalanların sayı isə 844 872 nəfər olaraq göstərilib.

Dekabrın 15-nə kimi ölkədə ümumi olaraq 2 336 951 nəfər COVID-19 əleyhinə peyvənd olunub.

Ölkə üzrə karantin rejimində 33 nəfər, stasionar nəzarətdə 5 887 nəfər, COVID mehmanxanalarda olan şəxslərin sayı 1 144 nəfə olaraq göstərilib.

## HÖKUMƏTİN MƏHDUDİYYƏTLƏR TƏTBİQ ETMƏKLƏ BAĞLI SƏLAHİYYƏT MÜDDƏTİ UZADILIR

Gürcüstan hökumətinin pandemiya dövründə məhdudiyyətlər tətbiq etməklə bağlı səlahiyyət müddəti 2023-cü ilin yanvarın 1-dək uzadılacaq.

“İctimai sağlamlıq haqqında” qanuna müvafiq düzəlişlər layihəsi Gürcüstan parlamentində müzakirəyə çıxarılacaq.

Sənəddə qeyd olunub ki, müddətin artırılmasının məqsədi hökumətin pandemiyanın yayılmasının qarşısını alması və proseslərin idarə olunması üçün mövcud hüquqi mexanizmin saxlanılmasıdır.




Qeyd edək ki, bundan öncə hökumətə bu səlahiyyət 2022-ci ilin yanvarın 1-dək verilmişdi.



# ZƏMANƏMİZİN "QƏHRƏMANLARI"

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

İndi məşhur olmaq, ulduz olub parlamaq, qəhramana çevrilmək çox asandır. Bunun üçün hansısa istedad, bacarıq, zəhmət, fədakarlıq, qoçaqlıq, qaçaqlıq da lazım deyil. Bunun üçün heç öz dilini bilməsən də olar. Əsas odur ki, gürcü dilində bir-iki cümlə qura biləsən, bir-iki mövzuya toxuna biləsən, baxmayaraq ki, mövzu ilə aranda kilometrlərlə məsafə var, toxunmaq bir yana, heç bu məsafədən o mövzunu görə də bilmirsən. Amma sən heç qəm yemə, indi uzaq məsafəni burnunun ucunda göstərən müxtəlif optik cihazlar var, nə qədər istəyirsən zum effektindən istifadə edə bilərsən. Sən təki danış, mövzuya toxun, o bahalı cihazları qapına qədər gətirənlər tapılacaq.

Zəmanəmizin qəhrəmanına çevrilmək üçün, sənə gözlərini yorub bu cihazlardan baxmaq da lazım deyil heç, oradan-buradan, ondan-bundan eşitdiklərini danışmağın bəs edir.

Məsələn, əlin bir dəfə də olsa kişi əlinə dəyməsə də kamera qarşısında düz oturub əyri danışmaq pozası aldıqdan sonra üzünə ən azı 50-60 yaşlı, həyatın və həyatin bütün çətinkliklərini yaşamış qadın ifadəsi verərək, nifrət qarışıq qəzəbli səs tonu ilə evlənməyin zərərlərindən, boşanmadan, uşaq dünyaya gətirməyin və uşaq böyütməyin çətinliklərindən, qeysəriyyə əməliyyatından, mastopatiyadan, çoxuşaqlı ailələrin problemlərindən, gəlin-qayınana münasibətlərindən, gəlin-baldız davalarından, gəlin və süpürgə söhbətindən, toylarımızda musiqinin səsinin ucalığından, "Vağzalı"sözünü "Atlandırma" ilə əvəz etməyin vacibliyindən, yengənin həyasızlığından, süni mayalanmadan, süni intellektdən və daha nələr-nələr haqqında süni-süni danışmaqla qəhrəman olmaq mümkündür.

(Gender balansı üçün yuxarıdakı abzasda "əlin bir dəfə də olsa kişi əlinə dəyməsə də" cümləsindəki "kişi əli"ni "qadın əli" və "üzünə ən azı 50-60 yaşlı, həyatın və həyatin bütün çətinkliklərini yaşamış qadın ifadəsi" cümləsindəki "qadın ifadəsi"ni "kişi ifadəsi" ilə əvəz edərək də oxuyun ki, feminist hüquq müdafiəçilərimizin xətrinə dəyməsin).

Bu qədər danışmağa gürcü dili biliyin imkan vermirsə, yenə də qəm yemə, məmə yeyəndən, pəpə deyənə ağızlarında saqqız kimi çeynəyib şirinini sorduqdan sonra tüpürdükləri bir mövzu da var – erkən evlilik. Bu haqda çox danışıb problemin kökünü, özəyini, mənbəyini, nüvəsini-zadı araşdırıb tapmaq, həlli məsələlərini ortaya qoymaq-zad da lazım deyil, erkən evliliyi milli adət-ənənə kimi sənə tərəf bərələn qeyri-milli minlərlə gözə kül kimi üfürsən, sənə tərəf şeşələnən milsiz minlərlə qulağa sırğa etsən yetərlidir. Dönüb avtomatik olursan zəmanəmizin qəhrəmanı. Amma danışanda elə danışmalısan ki, inandırıcı olsun, sənə baxanları, səni dinləyənləri inadırmalısan ki, erkən evlilik yalnız və yalnız bizdədir, bizim milli-mənəvi dəyərsizimizdir, adət-ənənəmizdir. İnandıra bilməsən, yanılıb bunun təkcə bizdə deyil, başqa xalqlarda da rast gəlindiyini desən, o zaman ulduzun parlamayacaq, mükafatsız qalacaqsan.

Əgər gürcü dilin televiziyaya, radioya, saytlara və daha haralarasa çıxası abırda deyilsə, yenə də qəm yemə, bunun da çarəsi var, özü də daha asan və daha qısa yolla. Məsələn, şükür Allaha indi hamı feysbukdan istifadə edir. Feysbukda bircə statusla da qəhrəman olmaq mümkündür. Götürürsən "ağ" prefiksli bütün sözlərdən sonra qara təhqir, qara yaxma, qara söyüş yazırsan, olursan zəmanəmizin qəhrəmanı, ilin adamı, ilin söyüş üzrə dövlət mükafatı laureatı, ən yaxşı təhqirə görə qran-pri sahibi və sair. Az qala ombudsman istefa verib yerinə səni təyin etmək istəyir.

Yenə davam etmək olar. Məncə, asan yolla, kəsələməsinə qəhrəman olmaq üçün bu qədər yetər. Qalanı sənin öz vicdanına.

Yox, əgər erkən evliliyi milli adət-ənənə kimi sırımaq əvəzinə problemin həlli yollarından söz açsan, günahı milli adət-ənənədə yox, hüquq-mühafizə orqanlarında, qanunun axsaqlığında axtarsan; bütün bunların kökünün məktəbdən tutmuş dövlətə qədər gedib çıxdığını sadədən mürəkkəbə doğru sadalasan; müəllimdən tutmuş deputata qədər erkən evlilik iştirakçısı olduğunu desən; bu problemin təkcə Kvemo Kartlidə deyil, Şida Kartli, Sameqrelo-Zemo Svaneti, Raca Leçxumi və Kvemo Svaneti, İmereti, Quriya, Acara, Samtsxe-Cavaxeti, Mtsxeta-Mtianeti və Kaxetidə də movcüd olduğunu qeyd etsən; və nəhayət bu erkən evlilik söhbətindən iyrəndiyini, boğaza yığıldığını hayqırsan səndən qəhrəman olmayacaq, nə ilin adamı olacaqsan, nə ayın adamı, nə də günün adamı. Özün danışdığını da elə özün eşidəcəksən.

Məndən bu qədər, day qalanı sənin öz vicdanına.

## OMBUDSMAN ETNİK AZLIQLARA OLAN MÜNASİBƏTDƏN NARAZIDIR




"Gürcüstanda etnik azlıqlar istər mərkəzi, istərsə də yerli dövlət orqanlarında proporsional təmsil olunmayıblar və təəssüflər olsun ki, bu istiqamətdə ildən-ilə əhəmiyyətli irəliləyiş əldə edilmir". Bunu Gürcüstan ombudsmanı Nino Lomcaria Beynəlxalq İnsan Hüquqları Günü ilə əlaqədar keçirdiyi brifinqdə deyib.

Onun sözlərinə görə, gələn ilin mart ayında tam hazır olacaq illik hesabatda etnik azlıqların vətəndaş cəmiyyətinə inteqrasiyasında mövcud problemlər də əksini tapacaq.

N.Lomcaria 2021-ci ildə bərabərlik məsələsinin problem olaraq qaldığını qeyd edib.

"Qadınlar, fiziki məhdudiyyətli insanlar, LGBT nümayəndələri, etnik və dini azlıqların hüquqlarının müdafiəsi əhəmiyyətli dərəcədə yaxşılaşmayıb", - deyə ombudsman bildirib.

## PEYVƏNDİN ÜÇÜNCÜ DOZASININ MÜDDƏTİ AZALDILIB




Gürcüstanın Səhiyyə Nazirliyinin qərarına əsasən, koronavirus əleyhinə vaksinin üçüncü - buster dozasının vurulması üçün tələb olunan müddət 6 aydan 5 aya endirilib.

Çində istehsal edilən vaksinləri vurduranlara üçüncü dozanın ən azı 3 ay keçdikdən sonra vurulması tövsiyə olunub.

Qüvvətləndirici doza kimi qəbul edilən peyvənd və ya digər preparatdan istifadə etmək mümkün olacaq.

Qeyd edək ki, Gürcüstanda buster doza 18 yaşdan yuxarı şəxslər üçün əlçatandır.

## "MÜHAFİZƏKAR HƏRƏKAT" ADLI YENİ SİYASİ PARTİYA YARADILIB

Gürcüstanda "Mühafizəkar hərəkat" adlı yeni siyasi partiya dövlət qeydiyyatına alınıb. Siyasi təşkilatın təsisçisi "Alt-İnfo" onlayn media resursudur.



Ultra-mühafizəkar və millətçi "Mühafizəkar hərəkat"ın əsas məqsədi Gürcüstanda liberal deyil, xristian demokratiyası qurmaqdır.

ABŞ və Avropa İttifaqına qarşı çıxan partiya liderləri Gürcüstanın Rusiya ilə münasibətlərinin bərpasının tərəfdarıdır.

Gürcüstanın hüquq müdafiəçiləri ultra-millətçi partiyanın qeydiyyata alınmasını hiddətlə qarşılayıblar.

## KEÇMİŞ NAZİR MÜAVİNİNƏ SAAKAŞVİLİYƏ GÖRƏ CİNAYƏT İŞİ AÇILIB



Baş Prokurorluğun məlumatına əsasən, Gürcüstanın daxili işlər nazirinin keçmiş müavini Giorgi Lortkipanidze barədə cinayət işi açılıb.

G.Lortkipanidze eks-prezident Mixeil Saakaşvilinin Gürcüstan sərhədini qeyri-qanuni keçməsinə kömək göstərdiyinə görə cinayət məsuliyyətinə cəlb edilib.

Qeyd edək ki, M.Saakaşvili bu ilin sentyabrın 28-də Gürcüstana qeyri-qanuni yolla daxil olub və oktyabrın 1-də Tbilisidə saxlanılıb. Onun ölkəyə gizli yolla gəlməsi ilə bağlı 4 nəfər yaxalanıb.

## GYMD-NİN SƏDRİ YTB BAŞQANI İLƏ GÖRÜŞÜB







Gürcüstan Gənclərinə Yardım və Maarilləndirmə Təşkilatının (GYMD) idarə heyətinin sədri Musa Hacıyev, köməkçisi və təşkilatın layihə koordinatoru Zviad Koçalidze Ankarada Yurtdışı Türkler və Akraba Topluluklar Başkanlığının (YTB) rəhbəri Abdullah Erenlə görüşüb.

"Yeni Yol" xəbər verir ki, görüşdə təşkilatların fəaliyyətləri haqqında danışılıb və Gürcüstan Gənclərinə Yardım və Maarilləndirmə Təşkilatının gələcəkdə həyata keçirəcəyi layihələr müzakirə olunub.

## İRAKLİ QARİBAŞVİLİ: GÜRCÜSTAN NATO-YA ÜZVLÜYƏ HAZIRDIR



Baş nazir İrakli Qaribaşvili Brüsseldə NATO-nun Baş katibi Yens Stoltenberqlə görüşdən sonra keçirilən brifinqdə Gürcüstanın NATO-ya üzvlüyü üçün artıq bütün praktiki alətlərin olmasını deyib.

Onun sözlərinə görə, Alyansa üzvlük Gürcüstanın xarici və təhlükəsizlik siyasəti üçün həlledici məsələdir.

İ.Qaribaşvili qeyd edib ki, Gürcüstanın NATO-ya daxil olması haqqında siyasi qərarın hazırlanması üçün müttəfiqlərlə fəal dialoq aparılır.

Y.Stoltenberq öz növbəsində deyib ki, Alyans Gürcüstana güclü siyasi və praktiki kömək göstərməyə davam edəcək.

"Gürcüstan və Ukraynanın müttəfiq seçmək hüququ var. Rusiya bu iki ölkənin seçiminə təsir etmək hüququna malik deyil. NATO Gürcüstanın dəniz istiqamətində müdafiə qabiliyyəti və təhlükəsizliyini gücləndirməyə hazırdır", - deyə Baş katib bildirib.

## GÜRCÜSTANIN İQTİSADİYYAT NAZİRİ AZƏRBAYCANIN BAŞ NAZİRİ İLƏ GÖRÜŞÜB



Azərbaycanın Baş naziri Əli Əsədov Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Natia Turnava ilə görüşüb.

Görüşdə Azərbaycan-Gürcüstan dostluq münasibətlərinin müxtəlif istiqamətlərdə uğurla inkişaf etdiyi bildirilib, iqtisadi-ticari, nəqliyyat-tranzit, sərmayə qoyuluşu, energetika, rəqəmsal transformasiya və bir çox digər sahələrdə əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə olunub.

Bakıda keçirilən Azərbaycan-Türkiyə-Gürcüstan biznes forumunun əhəmiyyətinə toxunularaq tədbirdə aparılan müzakirələrin və imzalanan sənədlərin üç ölkə arasında iqtisadi sahədə əməkdaşlığın ayrı-ayrı istiqamətlərdə inkişaf etdirilməsinə töhfə verəcəyinə ümidvarlıq ifadə olunub.

## SOCAR GÜRCÜSTANDA 780 MİNDƏN ÇOX ABUNƏÇİYƏ XİDMƏT GÖSTƏRİR

Azərbaycan Dövlət Neft Şirkətinin Gürcüstanda törəmə "SOCAR Georgia Gas" şirkəti hazırda 780 mindən çox abunəçiyə xidmət göstərir. Bu barədə şirkətin direktoru Azər Məmmədov məlumat verib.

Onun sözlərinə görə, 2007-ci ildən etibarən şirkət Gürcüstanın 700-dən çox yaşayış məntəqəsini qazlaşdırıb və 11 min kilometr uzunluqda qaz kəməri inşa edib.

Qeyd edək ki, Gürcüstanın təbii qaz bazarına 2007-ci ildə daxil olan "SOCAR Georgia Gas" qazın çatdırılması və paylanılması, eyni zamanda istehlakçılar və tədarükçülərə çatdırılmasını təmin edir. Şirkətdə 2 mindən çox əməkdaş çalışır.

*Mənbə: report.az*

## FİTRƏTDƏN GƏLƏN BİR DUYĞU – HƏYA



Hacı BƏKİROĞLU
hacihaciyev@hotmail.com

İslam dini insanın özündə var olan duyğuları Allah-taalanın təyin etdiyi qanunlarla yaxşıya istiqamətləndirməyi hədəf alır. İnsan pis və çirkin olan söz və hərəkətlərdən çəkinməlidir. Pislikləri tərk edib, yaxşılıqlara sarılmalıdır. Bunun üçün ən əhəmiyyətli qanunların başında vicdan, namus və utanma duyğusunu içində saxlayan həya gəlir.

Həya adamın məhrəmiyyət sərhədlərini bilməsini təmin edən və onu xeyirə yönəldən fitri bir duyğudur. Həya duyğusu inanan könülləri sevgi, hörmət və etibarla doldurar; həddi aşmağa qoymaz və dinc bir cəmiyyət meydana gətirər. Həzrət Peyğəmbər (s.ə.s.) belə buyurur: "Həmişə insanların peyğəmbərlərdən öyrəndiyi bir söz vardır: utanmırsansa dilədiyini et!" (Buxari, Ədəb, 78).

Eşidən, görən və hər şeydən xəbərdar olan Allaha inanan hər müsəlman bilir ki, yanında heç kim olmasa da insan tək deyil, hər an Rəbbinin hüzurundadır. Bu "hüzurda olmaq" şüuru insanda özünü ələ almaq sisteminin inkişafına köməkçi olur. Cənabı Haqq qatında kişi və ya qadın, bütün möminlər haramdan uzaq durmaqla və iffətli olmaqla məsuldur. Bu can, mal və bədənin əmanət verildiyini və hesaba çəkiləcəyimizi unutmayaq.

Ancaq nə yazıq ki, bu gün işlənən günahlar, edilən həyasızlıqlar baş alıb getməkdədir. Müasirlik adı altında kim nə istəyirsə onu da edir. Ancaq anlamaq istəmirik ki, müasirlik soyunmaqla, bədənini ona-buna göstərməklə, harada nə gəldi etməklə olmur. Müasirlik elmlə, ədəblə, əxlaqla olur. Gözəl tərbiyəli övlad yetişdirməklə, yeni ixtiralara imza atmaqla müasirləşmək lazımdır.

Səhv etmirəmsə həzrət Əlidən (r.ə.) nəql olunan bir söz var, buyurur ki: "Övladlarınızı zəmanəyə uyğun olaraq yetişdirin". Burada övladınızın əlinə kompüter, telefon verərək başını buraxın düşüncəsi yer almır. Zəmanəyə uyğun deyildikdə həmin dövrdəki inkişafa uyğun düşüncəsi yer alır. Əlbəttə, övladlarınızı telefondan, kompüterdən anlayan, istifadə edən bir fərd olaraq yetişdirin, biz buna qarşı deyilik. Ancaq kontrollu bir şəkildə edin ki, hara gəldi girib, kimlə gəldi danışıb sabah üzünüzə ağ olmasın, el içində sizin başınızı aşağı etməsin...

İnsan hər zaman etdiyi işləri, danışdığı sözləri öçlərək, düşünərək etməli və söyləməlidir ki, sabah onu utandırmasın.

Həzrət Peyğəmbərin "Arsızlıq harada və kimdə olursa olsun çirkinləşdirər; həya isə harada və kimdə olursa olsun zərifləşdirər" (Tirmizi, Birr, 47) hədisi insanın iç aləmini necə də gözəl ifadə edir. Demək ki, həya olmayan insandan hər cür pislik gözləmək mümkündür. Bu gün istər gənclərimiz, istərsə də orta yaşın nümayəndələri internetdə gördüklərini etməyi özlərinə böyük qürur bilirlər. Ancaq düşünmürlər ki, bəs bizim milli mentalitetlərimiz var, dini sərhədlərimiz var, ar-namus deyə bir şey var.

Görəsən biz bu duyğuları nə zaman yadırğadıq, öz əslimizi nə zaman və niyə unutduq, bunun günahkarı kimdir? Bəlkə də elə bizlər özümüzük günahkar ki, övladlarımızı düzgün şəkildə tərbiyə edə bilmirik. Bəlkə də onlara hər istədiklərini verdiyimiz üçün son bu cür nəticələrə gətirib çıxarır.

Gəlin papağımızı qabağımıza qoyub bir də düşünək. Düşünək görək bu yolla hara gedirik, niyyətində olduğumuz mənzilə bu halla gedib çata bilərikmi? Bir düşünək görək dahi Yunus Əmrə

*"Gəzdim Hələb ilə Şamı,*
*Eylədim elmi tələb.*
*Məgər elm bir heç imiş*
*İlla ədəb, illa ədəb"* – sözlərini boşunamı deyib?

# 1 KREDİT BAL TOPLAYAN TƏCRÜBƏÇİ MÜƏLLİMLƏRƏ BAŞ MÜƏLLİM STATUSU VERİLƏCƏK




Gürcüstanın Təhsil və Elm Nazirliyi müəllimlərin peşə inkişafı üzrə sxemində təcrübəçi müəllimlərlə bağlı dəyişiklik edib.

Nazirlik son iki ay ərzində Gürcüstan Parlamentinin Təhsil və Elm Komitəsi, Pedaqoq və Alimlərin Azad Həmkarlar İttifaqı və digər peşəkar qruplarla məsləhətləşmələr aparıb, nəticədə müəllimlərin peşə inkişafı üzrə sxemində növbəti dəyişikliklər edilib:

Gürcüstan hökumətinin 2019-cu il 23 may 241 nömrəli sərəncamına əsasən, məktəb rəhbərliyi **2021-2022-ci tədris ilinin ikinci semestrinə bir ay qalmış 2021-2022-ci tədris ili başlayana qədər fənn, yaxud peşə bacarıqları imtahanında iştirak etmiş və statusunu yüksəldə bilməyən müəllimlərin yerinə müsabiqə elan edəcək.** Vakant yerlər dolmadığı halda ümumtəhsil müəssisəsi ehtiyacdan irəli gələrək 2020-ci ilin 30 aprelinə qədər müəllimlər imtahanına qeydiyyatdan keçmiş təcrübəçi müəllimləri vakansiya yeri dolana qədər statussuz olaraq həmin işə qəbul edə bilər.

**İstisna hallar:**

- 2020-ci ilin 31 yanvarına qədər məktəbdə dərs demiş və 2020-ci ilin fevralın 1-dən aprelin 30-na qədər müəllimlər imtahanına qeydiyyatdan keçmiş, fənn, yaxud peşə qabiliyyəti imtahanını vermiş və ya minimum 1 kredit bal toplamış (fənn və peşə qabiliyyətinin minimal həddini aşmış) təcrübəçi müəllimlərə baş müəllim statusu veriləcək və onlar sistemdə qalacaqlar.
- 2020-ci ilin 31 yanvarına qədər məktəbdə dərs demiş və 2020-ci ilin fevralın 1-dən aprelin 30-na qədər müəllimlər imtahanına qeydiyyatdan keçmiş, fənn ixtisasını təsdiqləmiş və ya 10 kredit bal toplamış təcrübəçi müəllimlərə baş müəllim statusu veriləcək və onlar sistemdə qalacaqlar.
- 2020-ci ilin 31 yanvarına qədər məktəbdə dərs demiş və 2020-ci ilin fevralın 1-dən aprelin 30-na qədər müəllimlər imtahanına qeydiyyatdan keçə bilməyən, fənn və peşə qabiliyyəti ixtisasını minimum 1 kredit balla təsdiqləmiş təcrübəçi müəllimlərin ümumtəhsil müəssisələrinin baş müəllim vakansiyasına elan etdiyi müsabiqədə iştirak etmək hüququ var. Müsabiqəni uğurla keçdikləri halda isə ümumtəhsil müəssisəsində baş müəllim kimi işlə təmin edilmək imkanları var.
- 2020-ci ilin 31 yanvarına qədər məktəbdə dərs demiş və 2020-ci ilin fevralın 1-dən aprelin 30-na qədər müəllimlər imtahanına qeydiyyatdan keçməmiş, fənn ixtisasını təsdiqləmiş və ya 10 kredit bal toplamış təcrübəçi müəllimlərin ümumtəhsil müəssisələrinin baş müəllim vakansiyasına elan etdiyi müsabiqədə iştirak etmək hüququ var. Müsabiqəni uğurla keçdikləri halda isə ümumtəhsil müəssisəsində baş müəllim kimi işlə təmin edilmək imkanları var.

# BÜROKRATİYADAN KƏNAR MƏKTƏBDƏ NECƏ İŞLƏ TƏMİN OLUNMAQ OLAR?



Təhsil naziri Mixeil Çxenkeli parlamentdə çıxışı zamanı qeyd edib ki, məktəblərdə təcrübəçi müəllimlərin yerinə yanvar ayından vakansiyalar elan ediləcək və buna layiq olanlar işlə təmin olunacaq.

Müəllimlərin Peşə İnkişafı üzrə Milli Mərkəzi bir neçə il əvvəl müəllim olmaq istəyənlər üçün vakansiya səhifəsi – **teacherjobs.ge**-ni yaradıb. Məktəblərdəki bütün vakansiyalar məhz həmin veb-səhifəyə yerləşdirilir.

Müəllim olmaq istəyən şəxs teacherjobs.ge səhifəsində qeydiyyatdan keçən zaman ümumi təhsili təsdiq edən sənədi, şəxsiyyət vəsiqəsinin surətini, müvafiq imtahanı verməsi ilə bağlı arayışı səhifəyə yükləyir və şəxsi məlumatlarını qeyd edir. Bundan əlavə, vakasniyaya CV göndərmək imkanı olarsa motivasiya məktubu sütununu da doldurmaq mühümdür. Həmin sütunda niyə məktəbdə işləmək istədiyinizi izah etməlisiniz. Ancaq məktəbdə bürokratiyadan kənar işlə təmin olunmanın qısa yolu da var.

Müəllim olmaq istəyənlərin (yaxud müəllimlərin) vakansiya səhifəsinə qeydiyyatdan keçməkdən çəkinməsi və birbaşa məktəblə əlaqə saxlaması, daha sonra rəhbərliklə söhbət nəticəsində işlə təmin olunma halları təcrübədə tez-tez baş verir. Bundan əlavə, əksər hallarda müəllimliklə maraqlanan şəxslər vakansiya elan edilməsə də məktəbə öz CV-lərini qoyurlar.

Belə təcrübə nə dərəcədə doğrudur və işlə təmin olunmaq üçün hansı yol daha yaxşıdır?

Müəllimlər üçün vakansiyalar veb-səhifəsi daha da şəffaflıq olması üçün yaradılıb ki, Müəllimlər Evinin məktəbə nə zaman yeni kadr lazım olduğu, kimi işlə təmin etdiyi barədə məlumatı olsun. Ancaq yekunda vakant vəzifəyə kimin qəbul olunacağına yalnız direktor qərar verir.

Doğrudur, bürokratiyadan kənar məktəblə əlaqə saxlamaq, birbaşa ünsiyyət və işlə təmin olunmaq çox asandır. Ancaq lazımlı sənədləri təqdim etmədən status qazanmaq olmur. Vacib sənədlər isə bunlardır: *şəxsiyyət vəsiqəsi, notariat qaydasında ümumi təhsili təsdiqləyən sənəd, fənn imtahanının verilməsini təsdiq edən arayış, 60 kreditlik proqramı təsdiq edən sertifikat (əgər diplomda pedaqoq yazılmayıbsa).*

Vakansiya veb-səhifəsində qeydiyyatdan keçdikdən, məktəbə bu yolla öz sənədlərini göndərdikdən və işlə təmin olunduqdan sonra əlavə sənəd vermədən rəhbərliyin tələbi əsasında status qazanmaq olar.

# DİSTANT DƏRSƏ GÖRƏ MÜƏLLİM NƏ QƏDƏR ƏMƏKHAQQI ALIR?



Təhsil və elm naziri Mixeil Çxenkeli Parlamentdə çıxışı zamanı qeyd edib ki, müəllimlərin distant dərsləri tam maliyyələşdiriləcək. Bəs müəllimlər tam əməkhaqqı alırlarmı?

Hibrid təhsil rejimi tətbiq olunduqdan sonra müəllimlər ikiqat artıq dərs keçirlər – sinifdə və evdə. Şagirdlərin distant və əyani təhsil arasında seçim etmək hüququ var və buna görə də hər həftə sinifdə əyani iştirak edən şagirdlərin sayı dəyişir.

Hibrid təhsil modelindən irəli gələrək "Teams" proqramında bir şagird də dərsdə iştirak etsə müəllim bütün distant dərsləri keçməlidir. Məktəbdən qayıtmış müəllimlər onlayn dərslərin keçirilməsinə məsuliyyətlə yanaşır, ancaq şagird distant dərsdə iştirak etmirsə, bu zaman nə baş verir?

Əgər şagird (yaxud şagirdlər) onlayn dərsdə iştirak etmirsə, müəllimin maaşından pul kəsilir. Ay ərzində neçə dəfə distant dərs keçirilmirsə hər biri hesablanır və müəllim az maaş alır. Buradan irəli gələrək, müəllimlər tələb edirlər ki, onlayn dərslərin əməkhaqqı şagirdlərin iştirak edib-etməməsindən asılı olmasın və keçirilməyən dərsin səbəbkarı müəllim deyilsə onun maaşından pul kəsilməsin.

Xatırladaq ki, Təhsil və Elm Nazirliyinin qərarı ilə müəllim hər distant dərsə görə **5 lari 60 tetri** gəlir əldə edir.

# MƏKTƏB VƏ BAĞÇALARDA DÖVLƏT BAYRAĞININ QALDIRILMASI VƏ HİMNİN SƏSLƏNDİRİLMƏSİ MƏCBURİ OLA BİLƏR



Parlamentin Təhsil və Elm Komitəsinin iclasında deputat Kaxa Kaxnişvili "Gürcüstan dövlət simvollarından istifadə etmə qaydalarında" dəyişiklik etmək təşəbbüsü ilə çıxış edib. Qanun layihəsinə əsasən, ümumtəhsil müəssisələrinin binasında dövlət bayrağının asılması mərasimini keçirmək, gerbin yerləşdirilməsi və himnin səsləndirilməsi məcburi olmalıdır.

*"Qanun layihəsi əsasında ümumtəhsil müəssisələrinin binasında dövlət bayrağının qaldırılması və dövlət gerbinin yerləşdirilməsini məcburi edək. Eləcə də bu prosedurlar Gürcüstan qanunvericiliyinə uyğun olaraq təsis edilmiş fiziki və hüquqi şəxslərin binasında da məcburi olsun. Yəni özəl məktəblərdə və özəl uşaq bağçalarında Gürcüstan bayrağı mütləq qaldırılmalı, dövlət gerbi, eyni zamanda himnin sözləri asılmalıdır. Hətta bağça və məktəblərə minimum həftədə bir dəfə bu mərasimləri keçirmək tapşırığı verilməlidir"*, - deyə K.Kaxnişvili bildirib.

Qeyd etmək lazımdır ki, qanun layihəsinin müzakirəsi zamanı deputatlar qeyd olunan qanunun pozulduğu halında maddi cərimənin təyin edilməsi ideyasını da irəli sürüblər. Deputatlar qanun layihəsini birinci dinləmədə dəstəkləyiblər.

Qanun layihəsinin izahatında yazılıb: *"Qanun layihəsini qəbul etmək dövlət, yaxud bələdiyyə büdcəsinin xərc hissəsinə təsir göstərməyəcək. Qanun layihəsi ilə nəzərdə tutulmuş dəyişikliklərdən sonra ümumtəhsil müəssisəsi/məktəb, eləcə də Gürcüstan qanunvericiliyinə uyğun olaraq təsis edilmiş, məktəbəqədər təhsil və tərbiyə xidməti göstərən hüquqi şəxsin, bir müəssisənin təxminən 150 lari xərci olacaq.*

*Qanun layihəsinin hazırlanmasına ona görə ehtiyac yaranıb ki, məktəb binalarında, eləcə də Gürcüstan qanunvericiliyinə əsasən yaradılmış məktəbəqədər təhsil xidməti göstərən hüquqi şəxslərin binalarında qanunvericilik səviyyəsində dövlət bayrağının, dövlət gerbinin və dövlət himninin yerləşdirilməsi öhdəliyi tənzimlənsin".*

*Səhifədəki məlumatlar "etaloni.ge" saytından götürülüb.*
*Gürcü dilindən tərcümə etdi:* ***Aynurə ƏLİYEVA***



# VƏTƏNPƏRVƏRLİK VARİASİYALARI

Vətən haqqında danışanda gərək arada-sırada musiqili danışasan; amma bir şərtlə ki, bu vətən deyiləndə despotizm zülmü olmaya! Çünki vətən – etnik vətən anlayışından daha geniş vətəni nəzərdə tuturam – eynən musiqi mövzuları kimi melodik və ritmikdir! Müxtəlif variantlarda istədiyin qədər oxuyub təkrarla:

*Südüdür ki, dolanıb qanım olub,*
*O, mənim sevgili cananım olub.*
*Saxlaram gözlərim üstə onu mən,*
*Ölərəm əldən əgər getsə vətən!*

Vətən – anadır, ana dilidir, eşqdir, nəfəsdir. Nəbi Xəzri Vətənə xitabla "Anamın anasısan!" yazanda bunların hamısını yaxşı xatırladıb. Və əlbəttə ki, bunlar mövzunun mübahisəsiz tərəfləridir. Mübahisə doğuran tərəflər, "Vətən mənim üçün nə edib ki, mən vətən uğrunda ölümü belə, gözümə alam?" kimi təmənna doğuran tərəflərdir. Amma dünyada "Vətənpərvərlik tərbiyəsi haqqında" istənilən qədər yazmaq, danışmaq olar. Hətta bu yöndə qanunlar da qəbul edilə bilər, əsas mahiyyət dəyişməz qalır: yəni vətənə xidmət təmənnasızdır və əgər vətənə mənəvi, ruhi dünyanla bağlı deyilsənsə, deməli, haqsızsan! Üstəlik də, rəhmətlik İsmayıl Şıxlı demiş, deməli, vətəndə belə, "mənəvi mühacir"sən!

Yurdsevər, vətənsevər vətən övladının ona xas olan sifətləri batinindədir, öz iç dünyasında daşıyır onları. Daha "vətən"lə bağlı ildə beş layihə təqdim edib, pullar qazanaraq, ta xərcliyi tükənənə qədər artistik edənlər misallı libaslar dəyişməyib, dəfələrlə cilddən-cildə girməyib. Sonra da yenidən vətənə qarşı "revizorluğa-müfəttişliyə" başlamayıb.

Amma axı onsuz da günlərin bir günü M.Ə.Sabir demiş, "Çalxalandıqca, bulandıqca zaman nehrə kimi, yağı yağ üstə çıxır, ayranı ayranlıq olur".

...Adam qalır mat-məəttəl! Biz tərəflərdə bəzi milli-vətənpərvərlik hərəkatları niyə bağırtılar, vurhəşirlər, vurçatlasınlar fonunda baş verir? Məgər bunlar hüzur melodiyalı, həzin notlar şəklində olmalı deyilmi? Axı hansı həqiqi məhəbbətdə, saf sevgidə qara qışqırıqlar olur? Daha oğru bağırmaqla doğrunun bağrı yarılmır ki!..

Çünki dərdlərin, göz yaşlarının milli mənsubiyyəti yoxdur. Çünki tale qəfildən hər kəsin qapısını döyə bilir. Gərək dərs almağı bacarasan!

Gələk sözümüzün "Azərbaycan" sözündəki "can"dan olan canına!

Bu günlərdə 41 dəqiqəlik "Biz" tarixi-sənədli filminə baxdım. Film Azərbaycanın 44 günlük Vətən müharibəsinə həsr olunub. Çox təsirlidir. Daş ürəklərin anaxtarlarını belə, sındıra bilir. Burada bir kimsə qışqırmır: nə filmin rejissoru, nə direktoru, nə də operatorlar. Redaktorlar və montajçı da həmçinin!

Sitata keçirəm: *sənədli filmin süjet xəttində müharibə dövründə fenomenə çevrilən, fotosu, videosu ən çox paylaşılan, ən çox müzakirə olunan sadə insanların müsahibələrinə yer verilib. Müharibədə baş verən taleyüklü hadisələri məhz onlar və həmin anın şahidləri – əsgərlər, həkimlər, təqaüdçülər, jurnalistlər danışırlar; həmin anlarda keçirdikləri hissləri tamaşaçı ilə bölüşürlər.*

Baxın, filmin rejissoru Orman Əliyev bu yöndə fikirlərini necə bölüşür:

"Əslində çəkilişlər bütün çəkiliş qrupu üçün travmatik idi. Biz... əslində insanların yaşadıqları duyğuları toplayırdıq. Biz daxilimizdə bu filmi "emosiyalar ensiklopediyası" adlandırırdıq".

***"İnsanların yaşadıqları duyğuları toplamaq"!*** Burası çox-çox önəmlidir! Çünki bunlardan artıq səmavilik ətri gəlir! Ağrılı-acılı gerçəklərin səssiz hüznü, xiffəti başlayır. Burada saxta profillər, yerli sayılmaq, barmaqla göstərilmək mərəzləri, bağırmaqla tribuna əldə etmək iddiaları yoxdur. Heç yoxdur! Sanki durnalarla köçürsən! Bəsrədən də, Bağdaddan da uzaqlara!

Filmin qəhrəmanlarından olan yazıçı Seyran Səxavət demiş: yerdə dərd çəkməyə nə var, e! Dərdi gərək göydə çəkəsən!..

P.S.

"Biz" filmini ilin ən həqiqi vətənpərvər filmi adlandırardım. Həm də buna görə ki, məhz bu filmdə – içimizi doğrayıb-tökən, amma ən yaşıl və fidan ümidlər verən filmdə – əvvəl öz vətəninə, sonra da bəşəriyyətə mənsub olmalısan" qaydası-ənənəsi çox səmimi gözlənilmişdir.

*Üstəlik də ustad M.Arazın:*
*Səndən ötən mənə dəydi,*
*Məndən ötən sənə dəydi.*
*Məndən, səndən ötən daşlar,*
*Vətən, vətən, sənə dəydi.* – sərt prozası burada "Biz" tərəfindən dəf olunub. Bizim vətənpərvərlik variasiyalarımız əslində bu imiş!

Özümüzü tanıyaq!..

**İBRAHİMXƏLİL**

# İNSAN HƏYATINA YÖN VERƏN İLKLƏR



Bu mövzunu yazmağa məni vadar edən gündəlik həyatda qarşılaşdığım, eşitdiyim insan kütləsinin necə də duyğusuz, qayğısız, gündəlik həyatla məşğul olmalarını görməyim oldu. Yəni biz insanlar robotlaşmağa üz tutmuşuq, duyğular aradan istirahətə çəkilərək robotlaşma öz işini heç yorulmadan görməkdədir.

Doğrudur, həyat getdikcə daha da çətinləşir, hər kəs onu asanlaşdırmağın dərdinə düşərkən ehmal etdiyimiz gələcək qayğısı var. Bizlər bu gün gələcəyi düşünüb qayğısını çəkməsək, gələcək bizi heç vaxt bağışlamaz. Axı gələcəyin fundamental məhsulu bu gündən yerləşdirilir.

Sanki həyat gündəlik yaşantıdan ibarətdir. Gündəlik işləri gör bitir, sonra yenə təkrar et və budur, ömür bitir, geridə bir iz varmı? Gələcək nəsil üçün, gələcək övladlarımız üçün xeyir yoxdur, ola da bilməz.

Bugünlə məşğul olanlar gələcəyə iz buraxa bilməzlər. Gələcəyə iz buraxmaq üçün düşüncə və duyğulara istiqamət verməyi bacarmalıyıq.

Yaşamaq üçün istiqamət lazımdır. İstiqaməti bəlirləmək üçün isə insanoğlunun qərarlar verməsi şərtdir. Bu qərarlar da hissələrdən ibarətdir. Əl çəkilməz ilklər və daha sonrası üçün planlaşdırılmış hissələr.

İnsanın ilkləri ona kimlik qazandıran motivlərdən biridir. İlklər insanın sərhədlərini də təyin edər. Bu sərhədlər istiqamət almağımıza da böyük yardımçı olar. İnsanoğlu həyatda nələri önə çəkməli, nələrə dəyər verməlidir, bunu özü müstəqil seçməlidir.

Yəni həyat başıboş buraxılmış insanların aktyor kimi oynadığı səhnə olmamalıdır. Belə olarsa xüsran dolu aqibətdən qaçmaq mümkünsüz olar.

İlklərimiz vətən, millət, qeyrət, torpaq, haqq, ədalət olarsa, bir də bu duyğular indiki dövrdə dünyanın robotlaşdırmağa çalışdığı gənclikdə olarsa, o zaman necə də gözəl gələcək bizləri gözləyir deməkdir. Bir insan fərd olaraq özünü cəmiyyətin bir hissəsi, bəlkə də ən dəyərli hissəsi hiss etməlidir. Nəyə görəmi? Əgər belə olmazsa, o zaman arada qayğısızlıq düşüncəsi yaranar.

İlklər həyatın qaranlıq yollarında bizlərə işıq saçaraq doğruyu, yanlışı görməyimizə köməkçi olar və bununla yolumuz aydınlanar. Aydınlıq bir yolda insanın yıxılma ehtimalı daha az olar. Bunun üçün də öz həyat rəhbərimiz olan ilkləri seçməli və bu yolda davam etməyi bacarmalıyıq.

Həyat boyunca yazılan kitabların, əsərlərin əksəriyyəti insanoğluna haqqı-nahaqqı göstərmək və yanlışdan çəkindirmək üçün dərc olunmuşdur və bu kitablar insanoğluna xidmət etməkdədir. Bizlər zamanımızda həyatın acı küləklərinin daha şiddətli əsdiyi bu dövrlərdə daha az zərərlə dünyamızı aydınlığa çıxara bilmək üçün gec qalmamalıyıq.

İnsan duyğudan düzgün isdifadə edər və bu duyğunu düzgün yönləndirə bilərsə, o zaman hər şey daha asan və daha rahat olar.

Heç kimsə cəmiyyətdən özünü kənar etməməlidir, cəmiyyətin dərdi, sıxıntısı fərd olaraq hər birimizin sıxıntısı olmalıdır. Axı bizlər də bu cəmiyyətin parçasıyıq.

Gündəlik qayğılarla birgə cəmiyyətin gələcək narahatlığı, dünyamızın düzəninin pozulması, insani duyğuların yaşanması, haqqın, ədalətin qorunması kimi dərdlərimiz olmalıdır.

Keçmişlə bağlı gözəl sözlər sərf edərkən, bugünümüz və sabahımızla bağlı ümidsiz olmağa haqqımız yoxdur.

Hər kəs daşın altına əlini qoyarsa, yükün altına çiyin verərsə yük qoyulduğu yeri dağıda bilməz.

Həyat səhnəsi hər birimizindir, səhnə davam edərkən hər kəs hünərini sərgiləyir, sən də, mən də, biz də səhnələrimizi oynayırıq. Gəlin elə bir tamaşa nümayiş etdirək ki, izləyən bir də dönüb baxmaq istəsin.

**Lamiyə HACIYEVA**
*Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi Gürcüstan Müftiliyinin Qadınlar Şöbəsinin sədri*

# BALIQ BİLMƏZ, XALİQ BİLƏR



El arasında "Asan xidmət" deyilən ictimai mərkəzdən çıxıb dayanacağa tərəf istiqamət alanda uzaqdan tanış bir qadını gördüm. Qızıyla dayanmışdı. Əllərində cüt qızılgüllər var idi. Düzü, mən xoş xəbərləri bölüşməyi də, soruşmağı da sevirəm, amma kədərli məsələlərdə çox həssasam. Özləri deməmiş soruşmaram, əks halda tamam xəbərsiz kimi aparıram özümü.

Bu qadını ona görə sevirəm ki, o əsl bizim milli qadın obrazıdır. Cəfakeş, zəhmətkeş, qayğıkeş, əsl ana, əsl həyat yoldaşı, əsl gəlin, bir sözlə, dilimizin bütün tərif ifadələrini bu qadına tətbiq etmək olar.

Mən həmişə – yaxşı insan kimdir? – sualına düşünmüşəm ki, bu cavab o vaxt yerinə düşür ki, qəhrəman özü həyatda öz valideyn borcunu yerinə yetirsin. Bu da o vaxt mümkündür ki, "çörək verib, əlini başına yığasan".

Bax bu, o qadındır. Əsl mənim ideal bildiyim qadın, ana, həyat yoldaşı obrazı.

Uzaqdan onlara baxıb cüt güllərlə ziyarətin yönünü təxmin etmişdim.

Bu qadının cəfalı həyat yolu film kimi gözümün önündə canlandı.

Ali təhsilli bu qızı kəndə dönəndə, təbii ki, el adətiylə ağsaqqalların xeyir-duasıyla ərə verdilər. "Yıxılan ağlamaz" yoluyla irəlilədi.

Böyük külfət, qayın, baldız, qayınana, qayınata, qoca nənə-baba... Həyət işi, mal-qara... bir sözlə, işlər dövr edən kənd işi, ən əsası da "etməlisən, gəlinsən" sindromu. Bu minvalla 3 il keçdi. Artıq iki uşaq da var idi. Digər qayın da evlənmişdi. İmkan yox idi ki, böyük qardaş ev tikib ayrılsın. Bir gün ailəyə bir təklif gəldi. Uzaq qohumun övladları xaricdə yaşayırdılar. Rayon mərkəzindəki evlərində yataq xəstəsi olan nənəyə baxıcı lazım idi. Məsləhət idisə həm evdə qalsınlar, həm nənəyə baxsınlar.

Qayınata, qayınana susdular. Təklifin ikinci hissəsi sərfedici olsa da, birinci hissə əziyyətli idi. "Özü bilər", - deyə bütün məsuliyyəti gəlinin üzərinə atdılar.

Gəlin sakit öz otağına keçib, mışıl-mışıl yatan övladlarına baxdı: "Mən sizə bu yaşamla nə verəcəm ki? Yox, nə əziyyət olsa da dözəcəm. Təki balalarıma xoş gün yaşadam".

Gəlin otaqdan çıxanda bütün baxışlar üzünə dikilmişdi. "Mən razıyam" deyərkən sevinənlər də oldu, kövrələnlər də. Beləliklə, baxıcılıq həyatı 7 il davam etdi. Gəlin uşaqlarını bağçaya qoydu. Özü bütün günü xəstə qulluğunda dayandı, bir ayağı bağçada. Bəzən yorulanda şeytana lənət oxusa da "güya orada qalsam nə olacaqdı ki?" düşüncəsiylə özünə səbr dilədi.

Övladları Avropada şirkət sahibi, ticarət işçisi olsalar da, telefon əlaqəsi ananın istəyinə yetmirdi, balalarını daim ətrafında görmək istəyirdi.

Gözü doğmalarını axtaran ana baxıcısının əllərini ürəyinin üstünə qoyub dünyadan köçdü.

Gəlin işə düzəldi. Gündüzlər işlədi, arada evə qaçıb uşaqlara nəzarət elədi, gecələr ev işlərini gördü. Bəxtindən övladları da naxələf çıxmadılar. Hər iki övladı yüksək balla tələbə oldular. Kimsənin köməyi olmadan özləri özlərinə qapılar açdılar. Hər ikisi rayonda tanınmış şəxslərə çevrildilər. Artıq ailədə dörd nəfərlik işçi qüvvəsiylə ev aldılar, güzəranı tam düzəltdilər.

Ana və balaları bütün bayramlarda, anım, doğum günlərində mütləq nənəni ziyarətə gedirlər.

Ana övladlarına belə yol göstərib: "A bala,onun burada doğma övladları yox. Ona yaxın burada bir bizik. Həm də üstümüzdə haqqı var. Ev alana qədər yurdunda qalmışıq. Sizdən bir xahişim var, həmişə onu ziyrətə gedin".

Vicdanlı ana bunu bir əməl borcu kimi uşaqlarına nəsihət edir.

Mənsə düşünürəm ki, haqqın tərəzisində qəti səhv olmaz. BALIĞI dəryaya atan heç düşünməzdi ki, bunları qiymətləndirən XALİQ var.

Mən bu ananın tarixçəsini dinləyəndə özünə də dedim: Maşallah, sənin övladların belə zirvəyə çatdılar ha, bax bu hamısı sənin o vicdanının mükafatıdır. Həyatda ən böyük mükafat budur ki, Allah səni qiymətləndirib.

Ana qızıyla taksi saxladılar. Yox, yanılmamışdım, taksi qabaqdan qəbiristanlıq yoluna tərəf yön aldı.

**Esmira ƏLƏKBƏRLİ**

*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# UŞAQLIQ DÖVRÜNDƏN OĞURLANMIŞ UŞAQLIQ



Uşaqlar valideynlərin gözü qabağında onlayn oyunlardan fərqində olmadan zəhərlənirlər. Uşaq valideynindən inadcıl olaraq telefon tələb edir, PUBG oynamaq üçün.

Ətrafımdakı uşaqların hamısı bu oyunu oynayır. Bu oyun oyunçunun zehni sağlamlığına təsir edə, düşüncə, duyğu və davranışları dəyişdirə bilmə gücünə malikdir. Oyun onlayn oynandığı üçün hər yaş qrupundan insanlar iştirak edə bilirlər. Oyunçuların əksəriyyəti isə məktəblilərdir. Çox uşaq, məktəb də daxil olmaqla, gününü PUBG oynamaqla keçirir. Bu da ictimai olaraq passiv fərdlərin yetişməsinə imkan yaradır. Yalnız bir yerdə oturmaq və saatlarca PUBG oynamaq fiziki sağlamlıq üçün də yaxşı deyil. Bu oyunlar uşaqlarda tənbəlliyə, göz və baş ağrılarının da meydana gəlməsinə səbəb olur.

Uşağı sakitləşdirmək üçün öz rahatlığını düşünən valideynlər uşaqlara telefon verərək onların oyun aludəçisinə çevrilmələrinə imkan yaradırlar. Bu problemlər nəticəsində qayğıdan uzaq qalan uşaqlar milli-mənəvi dəyərlərindən yoxsul qalaraq cəmiyyətə aqressiv hərəkətlər və insanlara qarşı hörmətsiz davranışlar sərgiləyirlər.

Bizim sağlam və milli-mənəvi dəyərlərimiz oyun şirkətlərinin heç vecinə də deyil. Onlar pul qazanır, eyni zamanda bizim gələcək nəsillərimizin beynini öz düşüncələrinin meydanına çevirirlər. Son illərdə oyun dünyasına daxil olan PUBG uşaqları valideynlərdən alıb özünə bağlayaraq daha geniş kütləyə çatmaqdadır.

"PlayerUnknown's Battlegrounds" (PUBG) bir video oyunudur. Bu gün endirilmə sayı 100 milyonu keçən PUBG 2017-ci ildə yaradılıb. Oyunda 100-ə yaxın (ən çox 100) oyunçu istiqaməti təyin olunmuş bir təyyarənin içində oyuna başlayır. İstədikləri zaman təyyarədən paraşütləri ilə adanın hər hansı bir nöqtəsinə tullanırlar. Oyunçuların məqsədi müxtəlif yerlərdən tapdıqları müxtəlif silahlarla bir-birlərini öldürərək həyatda qalmaqdır, yəni sağ qalan oyunçu qalib olur.

Xüsusilə bu oyuna məktəbli uşaqların marağı daha böyük olur. Mobil versiyasından sonra oyun uşaqlar üçün daha əlçatan oldu.

Oyunçular oyun zamanı kredit kartıyla satın alma əməliyyatı edə bilirlər ki, bununla da oyun sistemi kredit kartınızı avtomatik olaraq yaza bilir. Yəni uşağınız oyun zamanı bir şey satın aldığında, digər satın alma əməliyyatlarını çox asan bir şəkildə reallaşdıra bilir.

PUBG-də hər kəs bir-biriylə səsli və yazılı olaraq ünsiyyət qura bilir. Bu zaman etik qaydalara uyğun olmayan sözlər və yazılar istifadə olunur. Həmçinin açıq-saçıq geyim tərzi ilə təchiz olunan avatarlar da istifadə olunur. Oyundakı səsli ünsiyyət zamanı ailə içərisində olan söhbətlər də digər oyunçular tərəfindən eşidilir.

Uşaqlar oyunu yüklədiyi zaman "oyunun tələb etdiyi şərtlərlə razısınızmı" deyə soruşulur. Şərtləri oxumadan "hə" deyən uşaq şərtləri qəbul etmiş olur. Oyun şirkəti istənilən zaman icazə verdiyimiz proqramlara daxil ola bilmə qabiliyyətinə malik olur.

Oyunda olan şifahi şiddət və pis davranışların uşaq üzərində təsir qoyacağı üçün onlara müəyyən dərəcədə məhdudiyyətlər qoymalıyıq. Uşaqlar nə tərz oyunlar oynayırlarsa beyinlərinin o qismini istifadə edirlər, beyinlərinin o qismi çox inkişaf etmiş olur və davamlı o şeyin praktikasını edirlər. Gəlin birlikdə 10 yaşında iki uşaq düşünək, biri futbol, digəri PUBG oynayır. Hər iki uşaq davamlı olaraq nəyin məşqini etmiş olurlar? Siz uşağınızın beyninin hansı tərəfinin inkişaf etməsini istəyirsiniz? Adam öldürmək və yaxud qırıb-dağıtmaq, ailə və camiyyət üzvlərinə qarşı kobud hərəkətmi?

Oyun zamanı uşağınız tanımadığı insanlarla səsli və yazılı olaraq ünsiyyət qurur, qarşı tərəfin neqativ enerjisindən,



ifadələrindən zəhərlənir və ya pis niyyətli kəslərin istismarına məruz qalır.

Valideynlər bu məqamda birgə çalışmalı, məktəb və uşaq bağçası xaricindəki zamanlarda əldən gəldiyi qədər uşaqların cəm şəklində toplanıb piknik və yaxud müəyyən ayrılmış vaxtlarda və yerlərdə qrup şəklində oyunlar, yarışmalar və s. kimi orta yaşlı nəslin uşaqlıqda oynadıqları ənənəvi oyunları onlara çatdırmalı və anlatmalıdırlar. Bizim uşaqlıq dövrümüzdə – texnologiyanın olmadığı bir vaxtda olduğu kimi uşaqlara kitab oxumalı, nənə-babalarımızın danışdıqlarını, öz uşaqlıq dövrümüzün xoş hekayələrini və müxtəlif uşaqlıq xatirələrini danışaraq yeni nəslə bir qədər də olsa bu zərərli oyunlardan uzaq tutmağa çalışmalıyıq.

Unutmamalıyıq, bu günün uşaqları gələcəyin cəmiyyət üzvləridir!

**Elsevər ƏHMƏDOV**

**"Yeni Yol" qəzetinin dizayneri**

# NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR

## TƏBİƏTİN VƏ TARİXİN HARMONİYASI

## 7. AVROPADA AZADLIĞIN DOZASI



*(əvvəli ötən sayda)*

Mən bu düşüncələrimi, qənaətlərimi Niderlandda yaşadığım aylar ərzində gördüklərimə, eşitdiklərimə, kənardan müşahidələrim əsasında yazıram. Buna diqqət etmənizi rica edirəm. Bu mövzu mənim şəxsi düşüncələrimə əsaslanır və hər kəsin də bu mövzuya aid fərqli münasibəti olacağını anlayıram. Mövzu müzakirələrə açıqdır, kim istəyir qoşulub fikrini söyləyə bilər.

Azadlıq, demokratiya, insan haqları, gender bərabərliyi və daha nələr son dönəmlərdə bizim insanlarımızın dilindən düşmür. Günü-gündən də bu istilahların işlənmə sahəsi genişlənir, təkrarlanma dövrülüyü isə sürətlənir. Bunun nəzərəçarpanlığı danılmazdır. Və bu istilahlara Renesans dönəmindən başlayaraq, Avropa maarifçiləri, yeni dövr filosofları tərəfindən işləklik qazandırılması da bəllidir. Avropanın böyük mütəfəkkirləri bu ideyaların insanların beynində oturuşması üçün yüzillərini xərcləməli olmuşlar, bu yüzilliklər ərzində dəfələrlə ölüb-dirilmişlər. O da bəllidir ki, bu istilahların cəmiyyət həyatına daxil olması, yaşarılıq qazanması xristian kilsəsinin müqavimətinin sındırılması, ona yerinin tanıdılması bahasına başa gəlmişdir. Bütün bunların qazanılması üçün Avropa insanının böyük müharibələrdən, inkivizisiya tonqallarından, cəmiyyəti sarsıdan inqilablardan keçməsi lazım gəlmişdir. Biz bugünkü Avropaya milyonlarla insanın qurban verilməsinin sonucu, məhsulu kimi baxmalıyıq və bu məqamı unutmamalıyıq.

Avropa bugününü qazanmaq üçün savaş meydanlarında axıtdığı qanlarla, inkivizisiya tonqallarından yüksələn nalələrlə yanaşı, parlamentarizm müstəvisində apardığı müzakirələrlə, fikir toqquşmaları, ideya fərqlilikləri ilə, bunların nəticəsində varılan razılaşmalar, ortaq məxrəcə gəlmələr yolu ilə nail olmuşdur. Bəzən razılaşmaların, ortaq məxrəcin tapılmasının yumruqlaşma ilə əldə olunduğunu da vurğulamadan keçməyək.

Avropada insanlar azaddır. Azad olduqları qədər də öz hüquqlarını bilən və öz haqlarını heç kimə yedirmək istəməyəcək qədər də mübarizdirlər. Avropa insanı şəxsi azadlığının bir yerə qədər olduğunu, onun sonsuzluğa qədər davam etmədiyini də anlayan və buna əməl edəndir. Fərdi məsuliyyətini dərk etmək bacarığına malikdir. Orasını deyim ki, fərdlərin məsuliyyəti cəmiyyətin məsuliyyətini də şərtləndirir. Fərd cəmiyyət qarşısında nəyi edib-etməyəcəyinin məsuliyyətini anladığı kimi, cəmiyyət də fərdlərə qarşı tutduğu mövqeyin necəliyinə görə məsuliyyətini dərk edir. Və məsuliyyətini dərk edən cəmiyyətin formalaşdırdığı, yaratdığı dövlət də məsuliyyət hissinin güclü olması ilə fərqlənir. Hər şey qarşılıqlı şəkildə baş verir. Proses həm aşağıdan yuxarıya doğru, həm də əksinə, yuxarıdan aşağıya doğru gedir.

Avropada azadlıq bir istəkdir, daxili tələbatdır, insanın özünü ifadə etmək yöntəmidir. Üstəgəl, burada azadlıq o qədər dərkedilən, o qədər mücərrədlikdən uzaqdır ki, onu istənilən məqamda hiss etmək mümkündür. Az qala bu hissin maddiliyini, gözlə görülənliyini iddia etməyi düşünürsən. Avropa insanı öz azadlığını istənilən məkanda – evdə, küçədə, ictimai nəqliyyatda ifadə edə bilir. Sadəcə bu məkanlarda azadlığın ifadə tərzi dəyişir. Məsələn, Niderlandda evlərin əksəriyyətində pərdədən sadəcə bir dekor kimi istifadə olunur. Pərdələr adətən qapadılmır, evin içərisi küçədən keçənlərin gözü qarşısında bütün çılpaqlığı ilə görünür. Ev avadanlıqları da, insanlar da göz önündədir. Ev sahibi evinin içində tam azaddır. Onun necə davranması kimsəni maraqlandırmır. Kimsənin onun evinə baxması normal hal hesab olunmur. Nədən ki, ev onun şəxsi mülkiyyətidir. Bu mülkiyyət toxunulmaz olduğu üçün ev sahibinin davranışı da heç bir məhdudiyyət tanımır. Yəni içərisi kənardan görünsə belə ev avropalı insanın azadlığını məhdudiyyətsiz ifadə edə biləcəyi bir məkandır. Ancaq evindən addımını kənara atan adamın evində etdiklərini bayırda da təkrarlaya biləcəyi ehtimalı yoxdur. Nədən ki, o artıq fərdilikdən çıxır, toplumun bir üzvünə çevrilir və cəmiyyətin fəaliyyət sahəsinə daxil olur. Cəmiyyətinsə fərdin evindəki şəxsi, hətta intim azadlığını qəbul etmək kimi bir dərdi yoxdur.

Bu söylədiklərimin davamı kimi və ya daha aydın anlaşılması üçün Niderlandda müşahidə etdiyim bir neçə örnəyi sizinlə bölüşmək istəyirəm.

Avropada azadlıq müəyyən çərçivə daxilindədir. Bu çərçivə o qədər gerçəkdir ki, bunu istənilən müşahidəçi kənardan görə bilir. Avropalı azadlığını ifadə etməkdə, hüquqlarından istifadədə sərbəstdir. Onun öz hüquq və azadlıqlarından yararlanmasına kiminsə mane olmayacağına əmindir. İnsanlar çərçivədən çıxmamaqla, yəni onların azadlıqlarının ifadəsi üçün cızılmış gözəgörünməz sərhədin daxilində müstəqil hərəkət etməyin ləzzətini yaşaya bilirlər.

İnsanın özünü ifadə etməsi üçün hər şeyin nəzərə alındığını, hesab-kitab edildiyini hər addımda hiss etmək mümkündür. Gəzməkmi istəyirsən? Buyur, xüsusi yerə. Oynamaqmı istəyirsən? Buyur, xüsusi oyun yerinə? Velosipedləmi getmək istəyirsən? Buyur, xüsusi yola. İtinləsənmi? Buyur, yerini seç. Narkotikmi dadmaq fikrindəsən? Problem deyil, get xüsusi yerə. Azad seksləmi məşğul olmaq niyyətindəsən? Kimdir sənə mane olan, buyur fahişəxanaya. Yəni sənin seçiminə heç kim qarşı çıxmayacaq. Sənin maraqlarının təmin edilməsi, gerçəkləşdirilməsi üçün xüsusi yerlər mövcuddur. Sən öz şəxsi maraqlarını məhz həmin xüsusi yerlərdə təmin edə bilərsən. Sən azadlıqlarını təmin edən çərçivələr daxilində hərəkət azadlığına maliksən. Amma çərçivədən çıxmayacağını, ayağını cızdan kənara atmayacağını da unutmamalısan.

Gündəlik həyatında bütün bunları nəzərə almalı, özünün gözəgörünməz sərhədini, özünə aid olan yerini tanımalısan. Buna əməl etmək isə hər bir insandan böyük iradə tələb edir. Avropalı öz azadlığının ifadəsi üçün böyük zəhmətə qatlaşır. Azadlıq havayı qazanılmayıb, ona sahib olan onu qorumaq üçün mübarizə aparmağı da, zəhmət çəkib yaşatmağı da bacarmalıdır. Bunları müşahidə etdikcə, azadlığın bəzi məqamlarda, istər şəxsi, istər ictimai anlamda, insanın çiyinlərində ağır yükə çevrildiyini düşünürsən. Azadlığın insanın üzərinə əlavə məsuliyyət yüklədiyini güman edirsən. Bir də biz elə düşünməməliyik ki, azadlığını yaşayan avropalı oturub-durub bal əmir. O, sadəcə çəkdiyi zəhmətin nəticəsi olan azadlığın barını dərir.

Sənin azadlığın üçün nəzərdə tutulmuş məkandan kənara çıxmaqla sən kiminsə azadlığını məhdudlaşdıra bilərsən, başqasının azadlıqlarını ifadə etməsinə mane ola bilərsən. Bunu unutmamalısan. Nədən ki, bunu unutmaqla sən qanunu pozduğunu anlamalısan. Başqalarının azadlıqlarına mane olduğun bəlli olduqda isə, hüquqi sistem dövrəyə girib, səni cəzalandırmaqla da olsa, öz çərçivənə çəkilməyə məcbur edəcək. Bunu qafana soxmalısan. Avropa insanı bu məqamda onun etirazının heç nəyə yaramayacağını da çox gözəl bilir. Özünə kəsilən cəzanın ağır və yüngül olmasına baxmayaraq, o, bununla barışır. O üzdən ki, avropalı ayağını öz cızından çıxardığını, başqalarının azadlıqlarını ifadə etməsinə təhlükə yaratdığını dərk edir və özünə kəsilən cəzanın qanuni olduğunu ürəyində də olsa, etiraf etməli olur. O, kəsilən cəzanın özünə qarşı haqsızlıq olduğunu zənn etdikdə isə, bunun da qanun yolu ilə çürüdülməsinə nail olur. Məhkəməyə baş vurur. Məhkəmənin necə qərar çıxaracağından asılı olmayaraq, həqiqətin bərpa olunmasına inanır.

Avropada insanın azadlığı sonsuz deyil, bir yerə qədərdir, müəyyən bir nöqtədə sərhədlə üzləşir. Bu sərhədin pozulmasının qarışıqlıq, xaos yaradacağı da bəlli. Nədən ki, sərhəd pozucusu həmişə qanunları pozandır. Deyək ki, işlək bir yol qovşağında işıqforlara heç kim – nə piyada, nə sürücü, nə də velosipedçi – əhəmiyyət vermir, hərə öz bildiyi kimi hərəkət edir. Bundan sonra nə baş verəcəyini təsəvvür etmək o qədər də çətin deyil. Sərhədləri pozulmuş azadlığın gətirəcəyi qarışıqlıq da bu cürdür. Azadlıq "babam mənə kor deyib, gələni-gedəni vur deyib" prinsipinin olmadığı, unudulduğu, bəlkə də unutdurulduğu yerlərdə keçərlidir.

Avropada sənin azadlığını ifadə etmək üçün qanun yanındadır, sənin azadlığını ifadə etmən üçün yardımçındır. O, cızından çıxana qədər səni qorumaqla məşğuldur, buna məsuldur. Sən sərhədini keçdinsə, bundan sonrasını Allah saxlasın. Qanun sənin qarşına keçib, səni dayandırmağa məcburdur. Səni cəzalandırmaq hesabına da olsa, bunu etməlidir. Bu, qanunun yerinə yetirməli olduğu vəzifədir. İncimə. Qanunun səninlə oynamağa vaxtı yoxdur. Pozmusan, buyur, cavab ver, cəzanı çək. Və "öz cəzandır çək, Balaş" deməyi də unutma.

Nə qədər ki, sən sənə verilmiş azadlıq çərçivəsinin daxilindəsən, bu çərçivədən kənara çıxmağı düşünmürsən kimsənin sənə dəyib dolaşacağı, səni narahat edəcəyi yox. Amma sən ayağını cızdan çıxardınmı, qanun keşikçiləri qarşında hazır olacaq. Bunu unutma. Avropada hüquq və azadlıqlar ağır cərimə və cəzalar hesabına tənzimlənir. Yek kəlmə belədir. Düşünməyək ki, Avropada hüquq və azadlıqlar insanlara xonçada təqdim edilir.

Avropada vətəndaşlara verilən azadlıq səviyyəsi, azadlıq dozası onların həzm edib, sinirə biləcəkləri qədərdir. ilk baxışda amorf bir cəmiyyət kimi görünsə də, yeni gələnlərdə "it yiyəsini tanımır" təəssüratı yaratsa da, Avropada hər şeyin nizamlı olduğunu, insanların öz azadlıqlarını ifadə etmələri üçün "iynədən sapa" qədər hər xırdalıqların nəzərə alındığını anlamaq üçün özünü dağa-daşa vurmağın gərək deyil, sadəcə diqqətini cəmləyib bu cəmiyyəti müşahidə etmən yetərlidir.

*(davamı gələn sayda)*

**Afiq MUXTAROĞLU**
Niderland

İCTİMAİ QƏZET yeniyolqazeti@gmail.com "იენი იოლი" საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur. 15 DEKABR 2021-Cİ İL №023 (146)

## QARDABANİDƏ VAJA PŞAVELANIN "MEŞƏ KOMEDİYASI" KİTABININ TƏQDİMATI OLUB



Dekabrın 5-i Qardabanidə fəaliyyət göstərən "BEEZ" Uşaq Teatrında gürcü ədəbiyyatının önəmli simalarından biri olan tanınmış gürcü şairi və yazıçısı Vaja Pşavelanın uşaqlar üçün yazdığı "Meşə komediyası" pyesi kitabının təqdimatı olub.

"Yeni Yol" xəbər verir ki, təqdimat mərasimində ziyalılar, müəllimlər, QHT nümayəndələri və Qardabani sakinləri iştirak ediblər.

Kitabın təqdimatından sonra "BEEZ" Uşaq Teatrının "Meşə komediyası" pyesi əsasında hazırlanmış tamaşa nümayiş etdirilib.

Sonda tamaşada iştirak edən balaca aktyorlar "BEEZ" Uşaq Teatrı tərəfindən diplom və maarifləndirici hədiyyələrlə təltif olunublar. Həmçinin ictimai fəal Samirə Bayramova da teatrın aktyorlarına simvolik hədiyyələr verib.

Pyesi gürcü dilindən Azərbaycan dilinə Aynurə Əliyeva tərcümə edib. Kitabın redaktoru və nəşrə hazırlayanı Azər Musaoğlu, dizayneri isə Elsevər Əhmədovdur.

Qeyd edək ki, kitab Gürcüstanın Mədəniyyət, İdman və Gənclər Nazirliyinin 2021-ci ildə elan etdiyi "Uşaqlar və yeniyetmələrin özəl yaradıcılıq studiyalarına dəstək" müsabiqəsində "BEEZ" Uşaq Teatrının qalib gəldiyi "Səhnədən



inteqrasiya" layihəsi əsasında çap olunub.

Layihəyə əsasən, Vaja Pşavelanın "Meşə komediyası" pyesi Azərbaycan dilinə tərcümə olunaraq kitab şəklində nəşr olunub və bələdiyyələrin kitabxanalarına, məktəblərə, icma mərkəzlərinə paylanılıb, həmçinin pyes "BEEZ" Uşaq Teatrı tərəfindən səhnələşdirilərək Qardabani, Rustavi, Marneuli və Bolnisi bələdiyyələrində nümayiş etdirilib.

## XARİCİ VƏTƏNDAŞLARDAN COVID-19 PASPORTU YENİ QAYDA İLƏ TƏLƏB OLUNACAQ




Gürcüstanın Dövlət Qurumlararası Koordinasiya Şurasının qərarına əsasən, xarici ölkə vətəndaşlarının COVID-19 pasportu əsasında obyektlərə buraxılması ilə bağlı qaydaya dəyişiklik edilib.

Qərara görə, www.covidpass.moh.gov.ge və yaxud CovidPass Georgia və Avropa İttifaqının rəqəmsal COVID sertifikatları sistemlərində qeydiyyatdan keçməyən əcnəbilər obyektlərə "yaşıl status" verən ölkənin rəsmi qurumunun sənədini (elektron və ya çap versiyası) təqdim etməlidir.

Həmin sənəd ya QR-kod, ya tam vaksinasiya kursunu təsdiqləyən sertifikat, ya da PCR testin mənfi nəticəsinə dair arayışdan ibarət ola bilər.

Qeyd edək ki, ölkədə COVID-19 pasportlarının tətbiqinə dekabrın 1-dən başlanılıb. 18 yaşdan yuxarı ölkə vətəndaşları və əcnəbilər restoran, kafelər, barlar, əyləncə mərkəzləri, teatr, kinoteatr, muzeylər, konsert zalları, kazino, spa və idman zalları, mehmanxana, dağ kurortlarında kanat yollarına yalnız bu sənəd əsasında buraxılır. Mağaza, supermarket, aptek və ictimai nəqliyyatda "yaşıl pasport" tələb edilmir.

## QARDABANİNİN ƏRAZİSİ BÖYÜYÜR




Gürcüstanın regional inkişaf və infrastruktur nazirinin müavini Mziya Giorqobiani parlamentin plenar iclasında çıxışında bildirib ki, paytaxt Tbilisinin inzibati sərhədlərinə dəyişiklik ediləcək.

Onun sözlərinə görə, şəhərin Krtsanisi rayonunun təxminən 270 hektarlıq sahəsi Qardabani bələdiyyəsinin inzibati sərhədlərinə daxil ediləcək.

Nazir müavini qeyd edib ki, bu məsələ investisiya layihəsinin reallaşdırılması və bələdiyyənin gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Qeyd edək ki, Qardabani rayonu Tbilisinin 30 kilometrliyində yerləşir, əhalisinin 80 %-dən çoxunu azərbaycanlılar təşkil edir.

## GÜRCÜSTANIN SÜRÜCÜLÜK VƏSİQƏLƏRİ AVROPADA TANINACAQ



Gürcüstanın xarici işlər nazirinin müavini Vladimer Konstantinidi Birinci kanala müsahibəsində bildirib ki, yaxın gələcəkdə Gürcüstanda alınan sürücülük vəsiqələrini Avropa ölkələrində istifadə etmək mümkün olacaq.

Onun sözlərinə görə, sürücülük vəsiqəsinin əldə olunması ilə bağlı Gürcüstan qanunvericiliyinə dəyişiklik edilib və Avropa standartlarına uyğunlaşdırılıb.

## Aİ GÜRCÜSTAN ORDUSUNA 12,75 MİLYON AVRO YARDIM AYIRACAQ



Avropa İttifaqı Şurasının məlumatına əsasən, Gürcüstanın Müdafiə Qüvvələri Avropa İttifaqından 12,75 milyon avro məbləğində yardım alacaq.

Məlumata görə, yardım Gürcüstan ordusunun potensialının möhkəmləndirilməsi, eyni zamanda, böhran və fövqəladə hallarda mülki əhaliyə xidmət göstərmək imkanlarını genişləndirməyə imkan verəcək. Yardıma tibbi və mühəndis avadanlıqları, həmçinin mülki təyinatlı nəqliyyat vasitələri daxildir.

Maddi dəstək çərçivəsində Moldovaya 7 milyon avro, Ukraynaya isə 31 milyon təqdim olunacaq.

## GÜRCÜ DİLİ BAĞÇADAN ÖYRƏDİLƏCƏK



"Bu il Gürcüstanda ilk dəfə olaraq məktəbəqədər müəssisələrdə bilinqual təhsil sisteminin tətbiqinə başlanılıb". Bunu Gürcüstanın təhsil və elm naziri Mixeil Çxenkeli parlamentdə "nazir saatı" formatında çıxışında deyib.

Nazir deyib ki, yenilik üçün tədris resurslarının hazırlanması istiqamətində intensiv işlər aparılır. "Proqramın pilot versiyaları Kvemo Kartli və Samtsxe Cavaxeti bölgələrindəki uşaq bağçalarında tətbiq olunub. Bələdiyyələr səviyyəsində sistemin tətbiqi ilə bağlı tələb və imkanlar, həmçinin gələcəkdə alternativ məktəbəqədər təhsilin tətbiqinə hazırlıqla bağlı araşdırmalar aparılır", - deyə nazir bildirib.

M.Çxenkeli qeyd edib ki, bilinqual təhsil proqramının həyata keçirilməsinə yerli ikidilli və köməkçi müəllimlər cəlb olunacaqlar.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor: Azər MUSAOĞLU
Yayım direktoru: Hacı BƏKİROĞLU
Qrafik dizayn: Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeniyolqazeti@gmail.com

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.